


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 213 (23.625)

8 dekabr 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan dövlətimizin başçısı deyib ki, iki ölkə arasında siyasi əlaqələr ən yüksək səviyyədədir. Bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə çox uğurla inkişaf edir.

Prezident İlham Əliyev nümayəndə heyətinə Gəncəyə və Ağdama səfər etdiyinə görə təşəkkürünü bildirib. Vurğulanıb ki, Ermənistan dövlətinin törətdiyi hərbi cinayətlər göz qabağındadır. Döyüş meydanında məğlubiyyətə uğrayarkən Ermənistan mülki vətəndaşları atəşə tutub. Müharibə zamanı 94 mülki şəxs həlak olub, 400-dən çoxu yaralanıb.

Ölkəmizin başçısı bildirib ki, indi ölkəmizin yeni dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və dost ölkələrin şirkətləri də dəvət ediləcək, daha doğrusu, artıq dəvət edilib. Prezident İlham Əliyev İtaliya şirkətlərinin bərpa, yenidənqurma işlərində fəal iştirak etməsi ilə bağlı istəyini bildirib.

İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosato ölkələrarası dostluğu daha da gücləndirmək istədiklərini və münasibətləri daha da şaxələndirmək fikrində olduqlarını söyləyib, Azərbaycanın münaqişədə həyatını itirən mülki şəxslərinə görə başsağlığı verib, 30 illik işğal dövründə Ağdamda törədilmiş viranəliyin şahidi olduqlarını bildirib.

## Tarixi ədaləti bərpa edənlər əbədi yaşayacaqlar





Vətən müharibəsində xalqımızın qazandığı şanlı qələbə ulu öndərin yolunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir. 30 il işğal altında olan torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası müstəqilliyimizin əbədi olduğunu bir daha təsdiq etdi. Bu mənada, Vətən müharibəsi Azərbaycan tarixinin şanlı zəfər salnaməsidir. Bu salnaməni xalqımızın igid və mərd oğulları qanları ilə yazdı, xalqımız yüzlərlə şəhid verdi. Nəsillərdən-nəsillərə örnək olacaq bu salnamə həm də gənclərə vətənpərvərlik, torpaq sevgisi, birlik, həmrəylik örnəyidir. Tarixi ədalətin bərpa olunmasında Naxçıvan oğulları da əsl qəhrəmanlıq göstərdilər.

Dekabrın 7-də Naxçıvan Beynəlxalq Hava Limanında şəhidlərimizin qarşılanma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Dövlət və hökumət nümayəndələri, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitləri və şəhidlərin ailə üzvləri tədbirdə iştirak etmişlər.

Şəhid olan hərbi qulluqçularımız Əliyev İbrahim Mustafa oğlunun və Məmmədov Sahil Rasim oğlunun üçrəngli bayrağımıza bükülmüş cənazələri hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin Sədri şəhidlərin xatirəsinə ehtiramını bildirdi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazələrinin önündən keçildi.

Şəhidlərin cənazələri doğulduqları kəndlərə yola salındı.

Ali Məclisin Sədri şəhidlərin ailə üzvləri ilə görüşərək onlara başsağlığı verdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Qəhrəmanlar unudulmur

27 sentyabr 2020-ci il... Düşmən təxribatı ilə üz-üzə gələn ordumuz üçün o gün torpaqlarımızın işğaldan azad edilməsinin başlanğıc tarixi oldu. 30 ildir, düşmən tapdağında cadar-cadar olmuş yurdumuzun azadlıq tarixi. Azadlığa, zəfərə gedən bu yolda xalqımızın 2783 övladı qurban getdi. Nə etmək olar ki?.. Şəhid olmadan bayraqlar dalğalanmaz, torpaq Vətən sayılmaz. Şəhidlərimiz içərisində muxtar respublikamızın da igid oğulları var.

Zəfər tariximizdə öz sözünü deyərək şəhidliyə ucalan igidlərimizin cənazələri dünən Naxçıvan Beynəlxalq Hava Limanında minlərlə sakin tərəfindən qarşılandı. Şəhidlərimizin nəşi avtomobil karvanlarının müşayiəti ilə doğulduqları kəndlərə yola salındı.

Şəhid olan hərbi qulluqçulardan Əliyev İbrahim Mustafa oğlu Kəngərli rayonunun Qabıllı kəndində, Məmmədov Sahil Rasim oğlu isə Naxçıvan şəhərindəki Qaraçuq kəndində son mənzilə yola salındı. Dəfn mərasimlərində dövlət və ictimaiyyət nümayəndələri, Ali Məclisin deputatları, Əlahiddə Ümumqoşun Ordunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, minlərlə sakin iştirak etdi. Dəfn mərasimində hər kəs onların igidliklərindən danışdı. Bildirdilər ki, tarixi Qələbənin qazanılmasında qəhrəmanlıq göstərərək şəhidliyə yüksələnlər bütün azərbaycanlıların ürəyində daim yaşayacaq, heç vaxt unudulmayacaqlar.

Mərasimlərdə iştirak edənlər şəhidlərin ailələrinə dərin hüznlə başsağlığı verdilər.

Şəhid valideynləri dəfn mərasimində çıxış edərək bildirdilər ki, torpaq şəhid qanı ilə qarışanda Vətən olur. İllərdir, davam edən işğala son qoymaq mütləq idi. Bu yolda qurban gedən oğullarımızla fəxr edirik. Təki Vətən sağ olsun.

Şəhidlərin ruhuna dualar oxundu, yaylım atəşi açıldı, üçrəngli bayrağımız onların doğmalarına əmanət olundu.

Əminliklə deyə bilərik ki, şəhid qanı ilə suvarılan əbədi və əzəli torpaqlarımızda dalğalanan üçrəngli bayrağımız bir daha enməyəcək. Nə qədər ki, müqəddəs amal uğrunda çarpışaraq qorxu nə olduğunu bilməyən, bu müharibəni gələcək nəsillərə saxlamayan, Vətən yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli oğullar, "Vətən sağ olsun" deyib gözündən bir damla belə yaş tökməyən analar, oğulların cənazəsi qarşısında qurban kəsən atalar var, bu xalq heç vaxt yenilməz.

**✍ Telli MƏMMƏDOVA**

## Bayraq Meydanı inşa edilir



***Muxtar respublikamızın nail olduğu sosial-iqtisadi inkişaf bütün bölgələrimizə müasir görkəm gətirib. Bu inkişafı şərtləndirən amillərdən biri də genişmiqyaslı, həyatımızın hər bir sahəsini əhatə edən tikinti-quruculuq tədbirləridir. O da qeyd olunmalıdır ki, ilbəil quruculuq tədbirlərinin həcmi ilə yanaşı, coğrafiyası da genişlənir. Belə tədbirlər sərhəd bölgəmiz Sədərək rayonunu da əhatə edib.***

Son illərdə bölgədə bu istiqamətdə görülən işlər rayon sakinlərinə göstərilən dövlət qayğısının ifadəsi olmaqla, sədərəklilərin qurub-yaratmaq əzminə də öz təsirini göstərib. Cari ildə də rayonda quruculuq tədbirlərinin həyata keçirilməsi diqqətdə saxlanılıb. Hazırda Naxçıvan-Sədərək magistral yolunun sağ tərəfində Bayraq Meydanının tikintisi yekunlaşmaq üzrədir.

Dövlət rəmzləri milli dövlətçiliyi, istiqlaliyyətin mövcudluğunu, xalqın keçmişini və gələcəyə yönəlmiş ən ülvi arzularını ifadə edir. Odur ki, hər bir vətəndaş dövlət rəmzlərinin yaranma tarixini, daşıdığı mənanı yaxşı bilməli, onları qorumalı, təbliğ etməli və aşıladığı ideyaları yaşatmalıdır. Bu baxımdan bayraq da xüsusi önəm kəsb edir və inşa edilən Bayraq Meydanı da dövlət rəmzinə ehtiramın ifadəsidir.

Bayraq Meydanı eni və uzunluğu 80 metr olan ərazidə aparılır. Bayraq dirəyinin hündürlüyü 36,70 metrdir.

Yaxın vaxtlarda rayonun görkəmli yerində üçrəngli bayrağımız dalğalanaraq, bir addımlığımızda yerləşən düşmənə gözdağı olacaq. Bildiyimiz kimi, Sədərək həm də Qərbə açılan qapımızdır. Buradan gəlib-gedən hər bir yerli və əcnəbi sakin bayrağımızın vüqarla dalğalanmasını seyr edəcək. Artıq son tamamlama işləri görülən meydanda gülkarlıqların əkilməsi üçün yerlər hazırlanıb. İşıqlandırma sistemi quraşdırılıb.

**Gülnarə HÜSEYNOVA**

***Böyük xalqlar dünyaya dahi şəxsiyyətlər bəxş edir, dahilər isə tarixi yaradır. Məşhur bir aforizmdə də deyildiyi kimi: “Tarixi yalnız qaliblər yazır”. Bəli, bu, məhz o tarixdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin “Qarabağ Azərbaycandır” deyərək nida qoyduğu və rəşadətli Ordumuzun XXI əsrə öz qanı və canı bahasına yazdığı 44 günlük şanlı tarix.***

# Vətən müharibəsindəki tarixi Qələbənin sirləri

### *XXI əsrin ən böyük sərkərdəsi*

Müasir və müstəqil Azərbaycanın dövlət müstəqilliyinin əldə olunması, qorunub saxlanılması və milli dövlət quruculuğu proseslərində əvəzsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin ordu quruculuğu istiqamətində açdığı yol bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilir.

Məlum olduğu kimi, sentyabrın 27-dən başlayaraq rəşadətli Azərbaycan Ordusu qısa zaman kəsiyində ədaləti bərpa və Vətənimizi işğalçılardan xilas etməyə müvəffəq oldu. Bu gün dünyanın nüfuzlu siyasi və hərbi ekspertləri də etiraf edirlər ki, Azərbaycan Ordusunun “az itki, böyük uğur” prinsipi ilə apardığı müharibə dünya hərb tarixində yeni bir səhifə açıb. Təbii ki, bu tarixi Qələbə asan başa gəlmədi. Vətənimizin igid, mərd oğullarının həyatını qurban verdiyi bu şərəfli və müqəddəs yolda dövlət başçımızın nə qədər böyük əzm nümayiş etdirdiyinin şahidi olduq. Azərbaycan xalqı bir daha gördü ki, ölkə Prezidenti cənab İlham Əliyev bu qalibiyyətin əldə edilməsi üçün böyük səbir, yüksək iradə və müdrikliklə çalışır.

### *Güvənc yerimiz, qürur mənbəyimiz – müasir Azərbaycan Ordusu*

Əminliklə demək olar ki, Azərbaycan Ordusunun düşmənin növbəti təxribatlarına cavab olaraq reallaşdırdığı əks-hücum əməliyyatı artıq, bütövlükdə, dünya hərb tarixinə və səhnəsinə qızıl hərflərlə yazılıb. Dünyanın müxtəlif ölkələrini təmsil edən hərbçilərin, bu sahə üzrə mütəxəssislərin fikrincə, Azərbaycan XXI əsrdə müharibə aparmağın parlaq nümunəsini ortaya qoyub. Azadlıq mücadiləmizdə onu da gördük ki, hərbi büdcəyə ayrılan vəsaitlər, hərbi arsenalımızda olan ən yeni, müasir və beynəlxalq standartlara uyğun silahlar, texnikalar, pilotsuz uçuş sistemləri heç də əbəs yerə alınmayıb.



Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Ordusu bu gün döyüş hazırlığına görə dünyanın 50 ən aparıcı ordusu sırasında qərarlaşıb.

Şübhəsiz ki, Azərbaycanın gücü təkcə texnikalarda deyil. Qarabağın incisi olan Şuşanın azad edilməsi uğrunda gedən döyüşlər bunun əyani sübutudur. Hərbi ekspert Aleksey Arestoviç bu barədə deyir: “Azərbaycan Şuşanı azad etdi. Piyada döyüşləri ilə, sursatları üstündə daşıya-daşıya, duman altında, pis hava şəraitində dağları yararaq qaytardı. PUA-sız, tanksız, artilleriyasız şəhər aldı”. Güvənc yerimiz, qürur mənbəyimiz Azərbaycan Ordusunun gücü isə, sözsüz ki, Vətən sevgisindədir. Müzəffər Ordumuz bu gün ən çətin döyüş tapşırıqlarını yerinə yetirməyə qadir olduğunu, Vətənin azadlığı uğrunda canından da, qanından da keçməyə cümlə hazır olduğunu bir daha sübut etdi.

### *Haqq nazilər, amma üzülməz*

Və ya məşhur fransız ictimai xadim Qabriel Mirabonun dediyi kimi: “Ədalət yavaş-yavaş yeriyir, amma gedəcəyi yerə gec-tez çatır”. Vətən müharibəsinin ən mühüm məqamlarından biri də ədalətli xarakter daşıması idi. Bəli, məhz Azərbaycan Ordusunun amalı və ideyası bu idi – ədaləti bərpa, Vətənimizi xilas etmək. Nəhayət, haqq-ədalət öz yerini tapdı. Müharibə qanunları və beynəlxalq humanitar qaydalar çərçivəsində erməni işğalçılarına qarşı zəfər yürüşünə başlayan Azərbaycan əsgəri Ali Baş Komandanın rəhbərliyi ilə ədalət məhkəməsini özü qurdu, mənfur düşmənin işğalında olan əzəli və əbədi Azərbaycan torpaqlarını xilas etdi. Dövlət başçımızın təbirincə desək: ***“Başqa ölkələrin torpağında bizim gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik”.***

Bu gün dünyanın nüfuzlu beynəlxalq təşkilatları Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda apardığı haqlı savaşı tam dəstəklədi. Bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu daim söyləyən və haqq savaşımızda ilk gündən bizi dəstəkləyən qardaş Türkiyə başda olmaqla dost ölkələr etiraz səslərini ucaltdılar. Birmənalı şəkildə Azərbaycanın haqlı mövqeyini dəstəkləyən, sözün əsl mənasında, əsl dostluq, qardaşlıq nümunəsi göstərərək haqq tərəfdarı olduqlarını sərgilədilər.

### *Qələbənin əsas meyarı – dövlət-xalq-ordu birliyi*

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər Ordumuzun ən yeni tariximizə qızıl hərflərlə yazdığı tarixi Qələbə, şübhəsiz ki, böyükdən-kiçiyə – bütün azərbaycanlılara sevinc və qürur hissi yaşatdı. Azərbaycan xalqı isə bu dəfə də, bu cür həssas dönəmdə dövlətinin və ordusunun yanında idi. 44 günlük Vətən müharibəsində dövlət-xalq-ordu birliyinin ən gözəl nümunəsi yarandı. Dosta sevinc, düşmənə gözdağı. Böyük-kiçik, qadın-kişi demədən insanlar istər maddi, istərsə də mənəvi güvənc yeri olan ordusunun yanında idi. Bu Vətən müharibəsində, haqq savaşında aylıq təqaüdünü könüllü olaraq Silahlı Qüvvələrin yardım fonduna ödəyənlər də oldu, evinin məişət əşyalarını göndərənlər də. Şübhəsiz ki, bu gün bütün sahələr üzrə tam komplektləşdirilən müasir Azərbaycan Ordusunun heç nəyə ehtiyacı yoxdur. Bunu rəsmi nümayəndələr də dəfələrlə ictimaiyyətə çatdırıb. Azərbaycan xalqının bu addımı da növbəti qayğının ifadəsi, xalq-ordu birliyinin təcəssümüdür.

### *Ağır miqrasiya problemləri işğalçı ölkənin hərbi məğlubiyyətini daha da sürətləndirdi*

Şanlı Qələbəmizdən danışarkən işğalçı ölkədə hökm sürən mövcud miqrasiya problemlərini də xüsusi vurğulamaq lazımdır. Vətən müharibəsinin başlandığı ilk günlərdən etibarən vaxtilə zorla və ya müəyyən şərtlər müqabilində əzəli və əbədi Azərbaycan torpaqları olan Dağlıq Qarabağa köçürülən, burada qeyri-qanuni məskunlaşan ermənilər yaşayış yerlərini kütləvi şəkildə tərk etməyə məcbur oldular. Bu baxımdan mövcud vəziyyət Ermənistanda miqrasiya proseslərini sürətləndirib, insanların başqa ölkələrə üz tutaraq vətəndaşlıq əldə etmək niyyətini daha da artırıb.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu, xalq-iqtidar birliyi və işğalçı ölkənin ağır miqrasiya kimi rastlaşdığı digər problemlər ölkəmizin Qələbəsini təmin edən amillər sırasındadır.

*Əminliklə deyə bilərik ki, Azərbaycan Vətən müharibəsinin başlandığı ilk günə qədər uzun və şərəfli yol keçib. Memarı ulu öndər Heydər Əliyevin olduğu bu yol ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Bu, Qarabağ nisgilimizə, torpaq həsrətimizə son qoyulmasında seçilmiş düzgün yoldur.*

**Arif BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Azərbaycan bəşər sivilizasiyasının meydana gəldiyi ən qədim ərazilərdən biridir. Arxeoloji qazıntıların nəticələri də göstərib ki, bu yerlərdə yaşamış insanlar tarixboyu çoxsaylı abidələr yaradıb. Dünya və Şərq memarlığının ən gözəl incilərindən olan abidələrin, tarixi irs örnəklərinin qorunması və mühafizəsi istiqamətində ən yüksək səviyyədə tədbirlər həyata keçirilir. Təəssüf ki, bu işləri uzun bir müddət ərzində ölkəmizin bütün ərazilərində aparmaq mümkün olmadı. Maddi mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində orada İslam mədəniyyətinə aid olan bütün muzeylər, məscidlər, abidələr dağıdılıb. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları, eləcə də Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla



yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr, Qarabağda fəaliyyət göstərən muzeylər və həmin mədəniyyət müəssisələrinə məxsus eksponatlar məhv edilib.

Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərər çox böyükdür. Əfsuslar olsun ki, bu abidələrin dağıdılaraq məhv edilməsi nəticəsində Azərbaycan xalqına dəymiş mənəvi zərərin miqyasını təyin etmək praktik olaraq mümkün deyildir. Bütün bu reallıqlara dünya birliyi sussa da, göz açandan həmin gerçəkliklərin təsiri altında böyüyən, tarix kitablarımızdan bu vəhşilikləri öyrənən gənclərimiz susmadı. 27 sentyabr 2020-ci ildə düşmənin torpaqlarımıza qarşı növbəti təxribatı ilə Ali Baş Komandanımız tərəfindən verilən əks-hücum əmrinə cavab kimi gənclərimiz səfərbər oldular. Bu dəfə ordumuz 1990-cı illərin əvvəllərindəki əliyalın, nizamsız, pərakəndə ordu deyildi. Tam qüvvə, müasir hərbi texnika ilə düşməni yerinə oturmağa vadar etdi. Ordumuzun gücündən lərzəyə gələn düşmən bir-birinin ardınca işğal bölgələrini tərk edib getməyə məcbur oldu. Ölkə Prezidenti cənab İlham Əliyev əməliyyatların başlandığı ilk gün xalqa müraciətində dedi: ***“Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, “Dağlıq Qarabağ ordusu”nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.***

***Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”***

Ermənistan hökuməti 10 noyabr 2020-ci ildə müharibəyə son qoyulması, işğalçı dövlətin torpaqlarımızdan tamamilə çıxarılması üçün Bəyanat imzalamağa məcbur oldu. Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin birlikdə imzaladığı bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Bununla da Azərbaycan qalib gəldi. Bu xəbəri xalqa çatdıran cənab Ali Baş Komandanın dediyi kimi: ***“Bu günlərdə biz Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdən ordumuza dəstək gəldi. Bütün bölgələrdə hər bir vətəndaş böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlarımıza sevinib. Bütün bölgələrdə biz bunu gördük. Bir daha gördük ki, ölkəmiz və xalqımız nə qədər gözəl ölkədir və gözəl xalqdır. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur. Çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır. Avrasiyada, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya onları qovurlar, azərbaycanlılar kimi etnik təmizləməyə məruz qoyurlar, ya da ki, başqa millətin nümayəndəsi orada yaşaya bilmir, sıxışdırırlar, sıxışdırırlar, sıxışdırırlar. Amma bizim üstünlüyümüz bax bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər”.***

Vətən uğrunda böyük fədailik göstərərək şəhidlik kimi ali, müqəddəs zirvəyə yüksələn gənclərimizin arasında Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə yanaşı, Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan ixtisas hazırlığı kurslarında hərbi-nəzəri biliklərə və praktik vərdişlərə yiyələnərək peşəkar hərbçi kimi yetişən eloğlularımız da vardır. Onların bu azadlıq mücadiləsindəki rəşadəti qədim diyarımızın qəhrəmanlar yurdu olduğunu göstərdi. Naxçıvan Əlahiddə Ümumqoşun Ordu hərbçilərinin İkinci Qarabağ müharibəsindəki şücaətləri, ərazi bütövlüyümüz uğrunda onların nümayiş etdirdiyi əzmkarlıq, vətəndaşlarımızın Azərbaycan dövlətinə və onun ordusuna dəstək aksiyaları keçirmələri muxtar diyarımızda vətənpərvərlik və milli şüurun təbliğinə nə qədər önəm verildiyinin sübutu oldu.

Ölkə başçısı xalqa müraciətində də naxçıvanlıların İkinci Qarabağ müharibəsində fəal iştirakını xüsusi qeyd edərək demişdir: ***“...Əziz naxçıvanlıları da bu hadisə münasibətilə təbrik etmək istərdim. Bildirməliyəm ki, naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər”.***

Noyabrın 8-də Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan biri, eyni zamanda ordumuzun Zəfər Günü kimi yaddaşlara əbədi həkk olundu.

Təbii ki, müharibəni itkisiz qazanmaq qeyri-mümkündür. Azərbaycan Respublikası Müdafiə Nazirliyindən verilən rəsmi açıqlamaya əsasən Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 hərbi qulluqçusu həlak olub. Onların sırasında 103 hərbi qulluqçunun DNT analiz metodu ilə şəxsiyyətinin müəyyən edilməsi üzrə işlər davam etdirilir. 100-dən artıq hərbi qulluqçumuz isə itkin düşmüş hesab olunur. Onların tapılıb ailələrinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür. Hazırda 1245 hərbi qulluqçumuzun tibb müəssisələrində müalicəsi davam edir.

Dünya mətbuatı Qələbəmizi şərh edərkən yeddi amili əsas götürür: güclü və iradəli Prezident, səmərəli hazırlanmış, yüksək səviyyədə təchiz olunmuş müasir ordu, Azərbaycan əsgər və zabitlərinin ruh yüksəkliyi, müharibənin ədalətli xarakteri – işğal olunmuş ərazilərimizin azad edilməsi, ağıllı hərbi planlama, döyüş əməliyyatlarının dəqiq hazırlanması, ordu və xalq birliyi, inkişaf etmiş hərbi sənaye kompleksi… Bəli, bütün bunlar Qələbəmizi şərtləndirdi və qaçılmaz etdi. Qəhrəman oğullarımızın qanı bahasına yazılan bu tarix bundan sonra gələcək nəsillərin torpaqlarımızın işğal tarixlərini oxuyaraq intiqam hissi ilə deyil, fəxarət hissi ilə böyüməsinə töhfə verdi. Böyükdən-kiçiyə hər bir azərbaycanlının ürəyində xüsusi yeri olan Ali Baş Komandanımız isə döyüş meydanında da, informasiya müharibəsində də düşmənə layiqli ibrət dərsi verdi. Bununla da Azərbaycanımızın ərazi bütövlüyünü təmin etməyə nail oldu.

**Asim BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşı***

# Tanınmış bəstəkar, gözəl pedaqoq, yüksək insani keyfiyyətlərə malik şəxsiyyət



*Qədim tarixə, zəngin mədəniyyətə malik olan xalqımızın musiqi mədəniyyəti əsrlərdən bəri enişli-yoxuşlu inkişaf yolu keçmişdir. XX əsri alimlər Azərbaycanın mədəniyyət və ədəbiyyatında qızıl bir səhifə kimi dəyərləndirirlər. Zaman keçdikcə qiyməti daha da artan bu səhifənin ən dəyərli incilərindən biri də Azərbaycan bəstəkarlarının yaradıcılıq yoludur. Dahi Qara Qarayevin tələbəsi olmuş bəstəkar Tofiq Bakıxanov da musiqi tariximizdə öz sözünü demiş, özünəməxsus yer tutmuş musiqi xadimlərimizdəndir.*

Azərbaycan Respublikasının Xalq artisti, Əməkdar incəsənət xadimi, Bakı Musiqi Akademiyasının professoru, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli bəstəkar Tofiq Bakıxanov 1930-cu il dekabr ayının 8-də Bakıda, görkəmli tarzən, Azərbaycanın xalq artisti Əhməd ağa Bakıxanovun ailəsində dünyaya göz açıb. Azərbaycan professional bəstəkarlıq məktəbinin layiqli davamçılarından biri, çoxaspektli və geniş yaradıcılıq fəaliyyətinə malik olan, milli ənənələrə böyük məsuliyyət və ciddiliklə yanaşan, əsərlərində yüksək peşəkarlıq və orijinal yanaşma tərzi nümayiş etdirən, yaradıcılığı, əsasən, XX əsrin ortalarında formalaşmağa başlayan Tofiq Bakıxanov bu günədək, demək olar ki, operadan başqa, musiqinin bütün janrlarında əsərlər yazmış, musiqili səhnə əsərləri – baletlər, musiqili komediyalar, simfonik orkestr üçün, xor üçün əsərlər, instrumental musiqilər, kamera-vokal əsərlər və digərləri onun qələminin məhsulu olmuşdur. Zəngin yaradıcılıq irsi yaratmış bəstəkarın hər bir əsəri – istər irihəcmli, istərsə də kiçikhəcmli əsərləri olduqca qiymətlidir.

Azərbaycanda əsrlərdən bəri öz sözünü demiş, tarix yazmış Bakıxanovlar nəslinin davamçısı olaraq üzərindəki məsuliyyəti tam mənası ilə dərk edən bəstəkar Tofiq Bakıxanov Azərbaycan musiqi tarixinə yüksək məharətlə öz adını yazdırmışdır. Təsadüfi deyil ki, akademik Budaq Budaqov onu "Xan nəslinin xan bəstəkarı" adlandırmışdır.

Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki 10 illik musiqi məktəbinin skripka sinfini bitirdikdən sonra Azərbaycan Dövlət Konservatoriyasında Skripka ixtisası üzrə təhsil alan (1948-1953) gənc Tofiq bəstəkar olmaq arzusu ilə 1953-1957-ci illərdə Qara Qarayevin sinfində təhsilinə davam edir.

Atası Əhməd ağa Bakıxanovdan öyrəndiyi muğamlar onun yaradıcılığı üçün əsaslı bünövrə olması ilə yanaşı, dahi Qara Qarayevin sinfində musiqinin incəliklərini öyrənməsi Tofiq Bakıxanovun dünyagörüşünün, yaradıcılıq üslubunun formalaşmasına, professional zirvəyə çatmasına səbəb olmuşdur.

1958-ci ildə SSRİ Bəstəkarlar İttifaqına üzv seçilən bəstəkarın əsərlərində xalq musiqisinə dərin bağlılıq müasir bəstəkarlıq yazı texnikası ilə üzvi vəhdət yaradır. Belə ki, o, istər irihəcmli, istərsə də kamera əsərlərində milli musiqi xəzinəsindən bacarıqla bəhrələnərək uğurlu bədii nəticələrə nail olur.

Azərbaycan musiqi tarixində ilklərə imza atan Tofiq Bakıxanov ölkəmizdə ilk solist skripkaçılardan olmuş, viola, violonçel, fleyta üçün sonata və konsert janrına, o cümlədən qoboy, klarnet, truba alətləri üçün konsert janrına ilk dəfə olaraq müraciət etmiş, Azərbaycanda ilk birpərdəli balet yazmışdır.

1950-ci illərdən başlayaraq Azərbaycan Dövlət Filarmoniyasının nəzdindəki trioda skripkaçı kimi fəaliyyət göstərməsi də bəstəkarın uğurlu yaradıcılıq yolundan xəbər verir. O həm də görkəmli bəstəkarlarımızın bir sıra əsərlərinin ilk ifaçısı olmuşdur.

Qeyd etdiyimiz kimi, Tofiq Bakıxanov məhsuldar bir bəstəkar olmuşdur. Onun yaradıcılığında kamera-instrumental və simfonik janrlı əsərlər üstünlük təşkil etsə də, bəstələdiyi üç balet ("Xəzər balladası", "Şərq poeması", "Xeyir və Şər"), bəstəkar Nəriman Məmmədovla birlikdə yazdığı 3 musiqili komediya ("Altı qızın biri pəri", "Məmmədəli kurorta gedir", "Qız görüşə tələsir"), tar və müxtəlif alətlər ilə simfonik orkestr üçün 26 konsert, 5 simfonik muğam, 8 simfoniya, 6 simfonik poema, kamera musiqisi sahəsində 26 sonata, müxtəlif tərkibli ansambllar üçün əsərlər, 9 fuqa, 5 prelüd, silsilə uşaq pyesləri, 120-dən artıq mahnı və romans bəstəkarın çoxşaxəli yaradıcılığından xəbər verir.

Tofiq Bakıxanov yaradıcılığında onun ən uğurlu əsərlərindən biri 1968-ci ildə yazdığı "Xəzər balladası" birpərdəli baleti olmuşdur. Ümumittifaq müsabiqəsində II dərəcəli diploma layiq görülən bu əsər 1969-cu ildə Parisdə keçirilən VII Beynəlxalq rəqs festivalı günlərində müvəffəqiyyətlə səhnələşdirilmiş, bundan sonra Fransanın müxtəlif şəhərlərində 30 dəfədən çox yüksək səviyyədə ifa edilərək uğur qazanmışdır.

"Xəzər balladası"nın uğurlarından ruhlanan bəstəkar daha sonra yenə bu janra müraciət etmiş, görkəmli rus şairi S.Yeseninin "Persid motivləri" əsasında "Şərq poeması" və dahi Azərbaycan şairi, mütəfəkkir və filosofu olan Nizaminin 850 illiyinə həsr olunmuş "Xeyir və Şər" baletlərini yazmışdır.

Azərbaycan və eləcə də dünya musiqi tarixində unikal janr olan simfonik muğam janrına müraciət edən bəstəkar bu sahədə yaratdığı "Nəva", "Humayun", "Rahab", "Şahnaz", "Dügah" simfonik muğamları ilə musiqi xəzinəmizi zənginləşdirmişdir. Atası Əhməd ağa Bakıxanovun ifası əsasında bəstələdiyi bu simfonik muğamlarda Tofiq müəllim ustadın fərdi ifa tərzi və muğam-təfsir üslubunu qoruyub saxlamışdır.

Simfonik yaradıcılığından bəhs edərkən qeyd etməliyik ki, müxtəlif illərdə yazdığı 8 simfoniyasının partiturası milli koloriti, obrazlı tematizmi, musiqi obrazlarının aydınlığı, ifadəli mövzuları ilə yanaşı, həm də bəstəkarın ifadə vasitələrindən məharətlə istifadə etməsini göstərir. Onun 7 saylı "Qarabağ harayı" simfoniyası bəstəkarın ürəyindəki Qarabağ nisgili, xalqımızın bu yöndə başına gətirilən müsibətlərin ifadəsi kimi səslənir. Qarabağın qeyri-adi gözəl təbiəti, büllur sulu bulaqları, ətirli çəmənlikləri, uca dağları simfoniyanın musiqi dili ilə aydın şəkildə dinləyicinin gözləri önündə canlanır. "Azərbaycan" simfoniyası (8 saylı) isə Tofiq Bakıxanovun Vətənə məhəbbətinin bariz nümunəsi və əsl himn kimi səslənir. Bəstəkar bu əsəri dahi Üzeyir Hacıbəyliyə həsr etmişdir.

Tofiq Bakıxanov Azərbaycan bəstəkarlarının çox az müraciət etdiyi bir janra – ikili konsert janrına da yaradıcılığında yer vermiş, bu sahədə 2 əsərin – skripka, violonçel və simfonik orkestr üçün ikili konsert, həmçinin tar, skripka və simfonik orkestr üçün ikili konsert müəllifi olmuşdur. Bəstəkarın kamera-instrumental janrda bəstələdiyi əsərlər ifaçılıq praktikasında və tədris repertuarında əsas yer tutmuş, beynəlxalq festivalların proqramına daxil edilmişdir.

Bəstəkar yazdığı sonatalarda Şərq xalqlarının musiqi folkloruna müraciət etmiş, hər bir xalqa məxsus milli koloriti təbiət təsvirləri, lirik-dramatik obrazlar vasitəsilə özünəxas bir tərzdə əks etdirmiş, xalq musiqi elementlərindən bacarıqla faydalanmışdır.

Tofiq Bakıxanov "Türk rapsodiyası", "Kuzey Kıbrıs süitası", 6 nömrəli "Türk simfoniyası", "Türk eskizləri", "Şərqdən gələn sədalar" simfoniyettaları, Mustafa Kamal Atatürkə həsr olunmuş "Dünya durduqca yaşa" kimi əsərlərində qardaş ölkələrə sevgisini ifadə etmişdir.

Bütün incəsənət xadimlərimiz kimi, Tofiq Bakıxanov da doğma Vətənimizə, onun gözəlliklərinə, tarixinə həsr olunmuş çoxsaylı əsərlərin müəllifidir. Xüsusilə kamera-vokal janrında yazdığı əsərlərdən "Gözəlliklər məskəni", "Vətən nəğməsi", "Azərbaycan", "Qobustan qayaları", "Azərbaycan bayrağı", "Qarabağ", "Azərbaycan gölləri", "Abşeron bağlarında" və digər mahnıları onun Vətən sevgisindən xəbər verir.

Tofiq Bakıxanovun yaradıcılığında diqqəti cəlb edən əsas xüsusiyyətlərdən biri də onun xalq musiqisini dərindən mənimsəməsi və bunu öz əsərlərində əks etdirməsidir. Xalq musiqisinə, muğamlara maraq və məhəbbət hələ uşaq yaşlarından onun qəlbində, yaddaşında həkk olunmuş və xalq musiqi elementləri, muğam intonasiyaları bəstəkarın istər kiçik, istərsə də böyükhəcmli əsərlərinin musiqi mətnində özünü göstərmişdir. Təsadüfi deyil ki, Tofiq müəllimin yaradıcılığında həm də Azərbaycan xalq mahnılarının xor üçün, skripka və fortepiano üçün işləməsinə rast gəlinir.

Tofiq Bakıxanovun həyat və yaradıcılığında Naxçıvana olan xüsusi məhəbbəti də qeyd olunmalıdır. Naxçıvanı "Ulu və müqəddəs diyar" adlandıran bəstəkar son dövr yaradıcılığında məhz Naxçıvanla bağlı mövzulara geniş yer vermişdir. Belə ki, bəstəkarın simfonik orkestr üçün yazdığı "Naxçıvan" simfoniyettası, Naxçıvana həsr olunmuş mahnıları ("Naxçıvan", "Nurlu Naxçıvan", "Arpaçay", "Batabat bağları" və başqaları) onun bu qədim diyara məhəbbətinin ifadəsidir. Ümummilli lider Heydər Əliyevdən bəhs edən "Həmişə bizimləsən" adlı simfonik poeması da bəstəkarın məhz Naxçıvan səfərlərindən sonra ərsəyə gəlmiş, ilk dəfə məhz Naxçıvanda – bəstəkarın 75 illik yubiley tədbirində səsləndirilmişdir.

Təsadüfi deyil ki, mədəniyyətimizin böyük himayədarı olan ulu öndər Heydər Əliyev siyasi məktəbinin davamçısı, sənətə və sənətkara yüksək diqqət və qayğı göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov da Tofiq Bakıxanov yaradıcılığına böyük diqqət göstərmiş, verdiyi sərəncamlar ilə muxtar respublikada Tofiq Bakıxanovun 75, 80 və 85 illik yubileyləri, eyni zamanda bəstəkarın ulu babası Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyi yüksək səviyyədə qeyd edilmişdir. "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adını və Naxçıvan Muxtar Respublikasının 85 illiyi münasibətilə təsis edilmiş Qızıl medalı almaq da Tofiq Bakıxanova nəsib olmuşdur.

Ali Məclisin Sədri bəstəkarın yaradıcılığını hər zaman yüksək qiymətləndirmiş və öz ürək sözlərini belə ifadə etmişdir: ***"Tofiq Bakıxanovun yaradıcılığında Şərq təfəkkür tərzi ilə Qərb musiqi mədəniyyəti özünəməxsus şəkildə vəhdət təşkil etmişdir. Bu əsərlərin mövzusu Şərq və ya Azərbaycan mühitindən götürülsə də, musiqi dili, bəstəkarlıq üslubu Avropa musiqi mədəniyyətinə xas olan yüksək professional səviyyədə təcəssüm etdirilir. Bu mənada, Tofiq Bakıxanov yaradıcılığı beynəlxalq musiqi standartları səviyyəsinə çıxaraq özünə əbədi yaşamaq haqqı qazanmışdır... Tofiq Bakıxanov, sözün həqiqi mənasında, musiqi fədaisidir".***

Bəstəkarın yubiley yaşları hər zaman ölkəmizdə böyük təntənə ilə qeyd edilmiş, onun yaradıcılığına həsr olunmuş elmi-praktik konfranslar təşkil olunmuşdur.

Tofiq Bakıxanovun əsərləri nəinki Azərbaycanda, keçmiş Sovetlər Birliyi və eləcə də dünyanın bir çox ölkələrində – Avstriya, Yuqoslaviya, Fransa, İsveçrə, Bolqarıstan, Almaniya, Rumıniya, İngiltərə, Şotlandiya, İsveç, Türkiyə, İranda uğurla səsləndirilmişdir. Bəstəkarın müxtəlif ifaçılar tərəfindən ifa olunmuş əsərləri lentə yazılmış, Azərbaycan və Moskva radiosunun qızıl fonduna daxil edilmişdir.

Tofiq müəllim öz missiyasını təkcə bəstəkarlıqla çərçivələmir, eyni zamanda onun müəllifliyi ilə çap olunmuş "Musiqili ömrüm", "Musiqi düşüncələri" (I və II hissələr), ilk naxçıvanlı professional bəstəkar M.Nəsirbəyov haqqında (bəstəkar Nazim Quliyevlə birlikdə) yazdığı kitablar da böyük əhəmiyyət daşıyır. Bundan başqa, bəstəkar həm də vaxtaşırı dövri mətbuatda musiqi sənətinin müxtəlif problemlərinə həsr olunmuş elmi-publisistik, maarifləndirici məqalələrlə çıxış edir.

Tofiq Bakıxanov musiqimizi xarici ölkələrdə geniş təbliğ edən fəal ictimai xadim kimi həyatının müxtəlif illərində respublikada və xaricdə bir çox beynəlxalq musiqi festivallarında, müsabiqələrdə iştirak etmiş, Moskvada, Tbilisidə, İstanbul, İzmir, Tehran, Bolqarıstanda onun 60-dan çox müəllif konsertləri keçirilmişdir. Bəstəkar və onun əsərləri haqqında çox sayda resenziyalar, monoqrafiyalar, silsilə məqalələr yazılmış, "Tofiq Bakıxanov" adlı televiziya filmi çəkilmişdir. İnanırıq ki, gələcəkdə də bəstəkarın əsərləri haqqında çox sayda elmi-tədqiqat işləri, dissertasiyalar, elmi məqalələr meydana gələcək, onun yaratdığı əsərlər araşdırılıb təhlil olunacaq. Tofiq Bakıxanov təkcə istedadlı sənətkar deyil, həmçinin olduqca dəqiq, məsuliyyətli, milli musiqiçi kadrların yetişməsində əməyi olan gözəl pedaqoq, yüksək insani keyfiyyətlərə malik böyük şəxsiyyətdir.

*90 illik yubileyini Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər Ordumuzun şücaəti nəticəsində şanlı Vətən müharibəsinin qələbəsi ilə qeyd edən böyük bəstəkarın 95 illik yubileyini möhtəşəm festivalla Azərbaycanımızın musiqi beşiyi olan Şuşada qeyd etmək arzusu ilə...*

**Günay MƏMMƏDOVA**
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Bəstəkarlar İttifaqının üzvü***

# Şagirdlər vətənpərvərlik ruhunda tərbiyə olunurlar

Məktəbin, müəllimin vəzifəsi təkcə bilik vermək, hansısa elmin sirlərini açıqlamaq deyil, həm də Vətənə layiqli şəxsiyyətlər yetişdirməkdir. İlkin vətənpərvərlik hissinin aşılanması isə müxtəlif üsullarla – şagirdlərə vətənpərvərlik mövzusunda mahnı və şeirlər öyrətmək, dövlət atributlarının şəkillərini çəkdirmək və sair vasitələrlə öyrədilir. Gənclərin çağırışaqədərki hazırlığı fənninin bu işdə böyük əhəmiyyət daşıdığını da vurğulamaq lazımdır. Bu fənn öz məzmunu etibarilə şagirdlərdə vətənpərvərlik, əqidəlilik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin inkişaf etdirilməsini, mülki müdafiə və ilkin tibbi yardım bacarıqlarının formalaşdırılmasını nəzərdə tutur.

Vətən uğrunda, torpaqlarımız uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş şəxslərin, beynəlxalq yarışlarda bayrağımızı yüksəldən idmançıların, Azərbaycanı dünyada tanıdan dövlət xadimlərinin, alim, yazıçı və incəsənət adamlarının şəxsi nümunələri də şagirdlər üçün tərbiyə məktəbidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun, "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" 2015-ci il 14 mart tarixli sərəncamlar məktəblilərin vətənpərvərlik və milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır.

Qürur hissi ilə deyə bilərik ki, muxtar respublikamızda gənclər arasında Vətənə məhəbbət hissi çox yüksəkdir. Bu da onunla bağlıdır ki, muzeylərlə ümumtəhsil məktəbləri arasında canlı bağlantılar yaradılır, qədim və zəngin tarixi mədəniyyəti özündə yaşadan yurd yerlərimizə, tarixi abidələrimizə ekskursiyalar təşkil olunur. Hərbi idman oyunları, atıcılıq turnirləri, özünümüdafiə ilə bağlı tədbirlər keçirilir.

Son dövrlər məktəblərimizdə şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinə diqqət daha da artırılıb. Hərbi kabinələrin maddi-texniki bazalarının gücləndirilməsi, hərbi rəhbərlərin hər il Əlahiddə Ümumqoşun Ordunun Təlim Tədris Mərkəzində təlimlərə cəlb edilməsi, onlara rüt-



bələrin verilməsi, Hərbi Liseyə təşkil edilən açıq qapı günləri şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasına öz müsbət təsirini göstərir. Bunun bariz ifadəsidir ki, 2020-ci ildə muxtar respublikanın 164 ümumtəhsil məktəbindən Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün ötən illə müqayisədə 11 faiz çox olmaqla, 498 şagird sənəd verib, onlardan 220-si kursant adını qazanıb.

Vətənpərvərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin artırılması, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Bu hissin təkcə dərs prosesində deyil, dərsdənkənar məşğələlərdə də aşılanması, vətənpərvərlik mövzularına həsr olunmuş tədbirlərin keçirilməsi şagirdlərdə qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hisslərin yaranmasında və dərinləşdirilməsində mühüm rol oynayır. Məktəblərimizdə vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə təşkilinin ifadəsidir ki, 30 ildir, düşmən tapdağında olan torpaqlarımızın azad edilməsində naxçıvanlı gənclər də böyük qəhrəmanlıqlar göstərdilər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

Oxunması zəruri olan kitablar

## Əsrin-əsrə, nəslin-nəslə dəyərli mirası – “Əli və Nino”

***Gərəkdir, kitabı yalnız oxumaq xatirinə deyil, həm də nəticə çıxararaq öz fəaliyyətin naminə faydalanmaq, kamilliyə yetişərək cəmiyyət həyatında söz, fikir sahibi olmaq üçün mütaliə etməyi qarşına məqsəd qoyasan ki, bu işdən həm mənəvi zövq, həm də istədiyini ala biləsən. Odur ki, faydalı əsər seç və çalış onu hər incə detalınadək oxu. Qarşına çıxan fikirlər üzərində dərindən düşün. Düşün ki, suallar yaransın hafizəndə. Tapdığın cavablar, şübhəsiz, mövzunun məğzini açaraq məsələnin mahiyyətindən hali edəcək səni...***




Gəlin yuxarıda sadalanan prizmalardan yanaşaraq “Oxunması zəruri olan kitabların Siyahısı”nda yer alan “Əli və Nino” romanının da mənəvi dünyamıza nələr bəxş etdiyini öyrənməyə çalışaq. Başlayaq romanın baş qəhrəmanı, hadisələri nəql edən Əli xan Şirvanşir obrazından. Diqqət yetirək onun xarakterinə, davranışlarına. Yəqin ki, çoxunuzun ağlına ilk olaraq Əlinin Ninoya olan sevgisi gəldi, elə deyilmi? Təbii ki, romanda bu amil özünəməxsusluğu ilə seçilir, ancaq paralel olaraq baş qəhrəmanın Şərq və İslam dəyərlərinə, mədəniyyətinə, doğma torpağına, elinə bağlılığı da mühüm nüans kimi diqqətimizdən yayınmamalıdır. Nümunə üçün “Müharibə – nə gözəl sözdür. Onda kişilik və qüdrət hiss olunur. Amma hər halda, mən burada qalmalıyam. Özümü düşmənin Vətənimizə, şəhərimizə və torpağımıza ayaq basdığı günə hazırlaşdırmalıyam”. Əsərin əvvəlindən sonunadək diqqət etsəniz, görərsiniz ki, baş qəhrəman bu sözləri, sadəcə, dildə deyil, əməlində də göstərir. Son nəfəsinədək sözünün arxasında durur. Vətənin dar günündə onu qoyub qaçmır. Nalayiq, xəyanətkar fikirlərə qarşı əyilməz sədd çəkir. Bəli, o fikirlərin ömrü uzun olur ki, onlar əməldə təcəlla etməyi bacarır. Odur ki, Əli kimi hər birimiz Vətənə, yurda olan məhəbbətimizi, sadəcə, fikirdə ifadə etməklə kifayətlənməməli, fəaliyyət sahəmizdən asılı olmayaraq, əməli işimizdə də göstərməli, böyüklərimizin təlqin etdiyi ailə dəyərlərini, adət-ənənələri qoruyub saxlamalıyıq.

Əsilli-köklü Şirvanşir nəslinin nümayəndəsi – Əlinin atası Səfər xan. Əsl azərbaycanlıya xas el-oba təəssübkeşliyi, iradə, dözüm, mübarizlik var qanında, canında onun. “Əcdadlarının qəhrəmanlığını sən öz qan damarlarında, ürəyində oxumalı idin”, – deyərək oğlunu Birinci Dünya müharibəsi başlandığı andan müharibəyə, torpaqları, yurdu yad əllərdən qorumağa səsləyir Səfər xan. Ata-babalarının qəhrəmanlıqlarını, igidliklərini xatırlatmaqla vətənpərvərlik ruhu aşılayır Əliyə. Eyni zamanda oğlunun yad millətdən olan biri ilə ailə həyatı qurmaq istəyini normal qarşılaması ilə açıqfikirliliyini, tolerant düşüncəsini ortaya qoyur. Əlinin övladının qız olduğunu biləndə “inşallah, gələn dəfə oğlan olar”, – deməklə öz hərəkətlərindən nəticə çıxarmağa səsləyir bizi. Atasının fikirlərinə təmkinlə yanaşır, götür-qoy edir yaddaşında hər sözünü Əli. Səbir, dözüm, iradə kimi xarakterik xüsusiyyətlərin önəmi, dəyəri aşılanır oxucuya. Tolerantlığı, kişi-qadın bərabərliyini də əxz eləyir Əli obrazı. Azadlığın ən şirin nemət olduğunu dərk edərək nişanlısı Ninonun Avropa qadınlarına xas hərəkətlərinə, sərbəstliyinə tənqidi yanaşmır, bir növ, müasirləşməyə, gerilikdən, kasad düşüncədən uzaq qaçmağa çağırış edir o.

“Çubuğun iki başı var. Biri yuxarı, o biri aşağı başıdır. Çubuğu çevirsən, yuxarı baş aşağıda, aşağı baş da yuxarıda olur. Çubuğun özündə isə heç bir şey dəyişmir”, – deyərək ətrafındakı insanların, dostunun, tanışının ona qarşı davranışlarını xarakterizə edir Əli. Bəli, zaman dəyişsə də, insanın xarakteri dəyişən deyil, necə deyərlər, 7-də nəsənsə, 70-də də eləsən, dəyişən, sadəcə, münasibətlərdir. Onun üçün də insanların sənə qarşı səbəbsiz yerə laqeydlik göstərməsini gördükdə əvvəl özünü, davranışlarını mühakimə etməyə çalış, sonra başqasında doğru və ya yanlışlıq axtar. Unutma ki, həyatda baş verən istər pis, istərsə də yaxşı, hər hadisədə bir səbəb mütləq vardır.

Yaxşı təhsil və tərbiyə almış nümunəvi bir gürcü qızıdır Nino Kipiani. Avropa mədəniyyətinin güzgüsüdür, sanki o. Hərəkətlərinə diqqət edəndə azərbaycanlılara xas sədaqəti, həyat yoldaşına qarşı əksilməyən hörmət-izzətini də görürük Ninonun. Əlidən onu qaçırmaq deyil, əsl adət-ənənəyə uyğun gəlib valideynlərindən istəməyini xahiş edir, sonadək qoruyur öz sevgisini, ismətini. Anasının, atasının onda Əliyə qarşı mənfi fikirlər, laqeyd münasibət yaratmaq cəhdlərinə rəğmən fikrindən əl çəkmir. Nino Kipianinin kiçik bir mübarizəsindən biz oxuculara nələrin sirayət etdiyini düşünək. Gördüyümüz bütün işlərdə, atdığımız addımlarda Nino kimi biz də çətinliklərlə, maneələrlə qarşılaşmırıqmı? Təbii ki, həyat varsa, yaxşı gələcək üçün çalışırıqsa, çətinlik qaçılmazdır. Zaman-zaman yolumuza sədd çəkməyə çalışan da tapılır, görmək istədiyimiz işə qarşı çıxan da. Ancaq möhkəm iradə və məqsədin varsa, qarşına çıxan heç bir maneə səni qorxudub getdiyin düz yoldan çəkindirə bilməz. Mövlana Cəlaləddin Ruminin dediyi kimi: “Hər şey üstünə gəlib, səni dözə bilməyəcəyin bir nöqtəyə gətirdiyində, əsla imtina etmə! Çünki ora gedişatın dəyişəcəyi yerdir”. Ona görə də zəhmətkeşlik göstərməklə bərabər, səbir, dözüm və iradəli olmalı insan, zira başqa cür uğur, nailiyyət qapısını açmaq mümkün deyil.

Gürcüstanın tanınmış nəsillərindən birinin nümayəndəsi olan Knyaz Kipiani. Nələr əxz edir bu obraz bizə. Gəlin dərindən düşünək, onun hərəkətlərini xarakterizə edək hafizəmizdə. Şöhrətpərəst və hiyləgər insandır Knyaz. Qızının Əliyə olan sevgisinə kölgə salmağa çalışır, müharibəni bəhanə edərək onların nikahını yubatmağa cəhd edir o. Bununla belə, övladını sevir, onun yaxşılığını hər şeydən üstün tutur, Knyaz. Elə bu səbəbdən də erməni Naxararyan öldürüləndən sonra qüruruna yenilərək qızının şərəfini xilas etmək üçün ailəsini də götürüb Səfər xanın qapısına getməkdən çəkinmir Knyaz. Valideyn olmağın məsuliyyətini dərk etdirir bu obraz oxucuya. Övladına qarşı laqeyd olma, onu həyatın keşməkeşli yollarında tək buraxma, – deyir atalara Knyaz Kipiani!

“Sən köləsən, sən oğrusan, sən qorxaqsan, çünki sən ermənisən”, – deyən böyük rus şairi Aleksandr Sergeyeviç Puşkinin sözlərinə bu əsəri oxuduqdan sonra bir daha haqq verməyə bilmirsən. İkiüzlülük, xainlik, qorxaqlıq, zəiflik kimi xüsusiyyətlərin daşıyıcısıdır Məlik Naxararyan obrazı. Əcdadları kimi saman altdan su yeritməyi gözəl bilir. Əlinin ona göstərdiyi inam və etibarına qarşı alçaqlıq, xainlik göstərir Naxararyan. Təbiətcə olduqca aciz və zəif, eyni zamanda çoxbilmiş, hiyləgərdir. Danışıq qabiliyyəti, şirin dili ilə Əlini də, Knyaz Kipianini də ələ almağa nail olur, Naxararyan. Millətinə xas olaraq öz mənfəətlərinə çatmaqdan ötrü min cür dona girməyi şərəfli iş hesab edir, “tolerantlığın, çoxmədəniyyətliliyin müdafiəçisi” kimi tanıdır özünü. Saxta mehribanlığı, yalançı səmimiliyi, yaltaqlığı və namərdliyi ilə hər kəsin, o cümlədən Əlinin, Ninonun ürəyinə yol tapır. Necə deyərlər, yalan ayaq açar, amma yeriməz. Gec-tez tutduğu biabırçı əməlinin qurbanı olan Naxararyan ibrətamiz bir həyat dərsidir bizlər üçün...

Yekun fikir olaraq böyük rus yazıçısı Aleksandr Gertsenin gözəl bir sözünü xatırlatmaq istərdim: “Kitab bir nəslin digər nəslə mənəvi vəsiyyətidir”. Fikrimcə, ədəbiyyatımızda özünəməxsusluğu ilə seçilən bir sıra əsərlər kimi, məhz “Oxunması zəruri olan kitabların Siyahısı”nda yer alan “Əli və Nino” romanını da mövzu baxımından aktuallığını itirməyən dəyərli miras hesab etmək mümkündür. Gimnaziyadakı coğrafiya dərsində Avropa və Asiya qitələri ilə bağlı müəllimlə şagirdlər arasında yaranan kiçik mübahisələrlə, Şərqlə Qərb adət-ənənələri, dəyərləri barədə bir-birindən maraqlı mülahizələrlə başlayan əsər Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun anbaan yaxınlaşmasını, erməni-rus birləşmələrinin xalqımızın azadlıq səsini boğmaq cəhdlərini ruha, qəlbə təəssüf hissi ilə hopdurur, iki gəncin sevgi hekayəsi fonunda o dövrün hadisələrini yenidən yaşadır oxucusuna. Sovet qılıncının kəskin, iti olduğu bir dövrdə işıq üzü görən bu romanı oxuduqca yazıçının cəsarətinə, sözün kəsərliliyinə heyran qalmaya bilmirsən...

✍ **Nail ƏSGƏROV**

*AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunda Fövqəladə Hallar Nazirliyi tərəfindən payız-qış mövsümünə hazırlıqla bağlı maarifləndirici tədbir keçirilib.*

## Maarifləndirici tədbir olub



Tədbiri giriş sözü ilə institutun elmi işlər üzrə direktor müavini, kimya elmləri doktoru Bayram Rzayev açaraq bildirib ki, belə tədbirlərin keçirilməsi mütəmadi xarakter almalı, xüsusilə soyuq qış aylarında qaz və elektrik cihazlarından səmərəli istifadə edilməli, həmin cihazlar nəzarətsiz qoyulmamalıdır.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Rəcəb Səfərov və Afaq Alməmmədova çıxış ediblər.

Qeyd edilib ki, təhlükə, əsasən, standartlara uyğun olmayan qızdırıcılardadır. Xüsusilə qaz xətlərinin düzgün çəkilməməsi, qaz üçün rezin boruların 80 santimetrdən uzun olması təhlükəlidir.

Sonra mövzu ilə bağlı suallar cavablandırılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Şagirdlər arasında diaskin test sınaqları davam edir



*Muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən məktəblərdə təhsil alan şagirdlər arasında vərəmin erkən aşkar olunması məqsədilə I-VI sinif şagirdlərində kütləvi tuberkulin test sınaqları aparılır.*

Bu məqsədlə rayon xəstəxanaları və Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanası publik hüquqi şəxsi, həmçinin gigiyena və epidemiologiya şöbələri tərəfindən xidmət ərazilərində tuberkulin testlərinə cəlb ediləcək şagirdlərin siyahıları tərtib olunub. Ərazi prinsipi üzrə 1 həkim və 2 tibb işçisindən ibarət xüsusi briqada yaradılıb. Zəruri hallarda tibb işçilərinin sayı 6 nəfərə çatdırılır. Sınaq materialının bölgüsünə və tədbirin yüksək səviyyədə həyata keçirilməsinə ciddi nəzarət edilir.

Kütləvi tuberkulin test sınaqlarına Kəngərli rayonunun xəstəlik halları müşahidə olunan tam orta məktəblərindən start verilib. Qıvraq qəsəbə, Şahtaxtı, Qarabağlar kəndlərində 1279 şagirdə diaskin test sınaqları qoyulub. 72 saat sonra sınağın nəticələri qiymətləndirilib və bu məktəblərdə vərəmə görə epidemioloji situasiyanın qənaətbəxş olduğu aşkarlanıb. Belə ki, müayinə olunan uşaqlarda vərəmə yoluxmanın aktiv fazası qeydə alınmayıb.

Tuberkulin testlərinin nəticələri qiymətləndirilərək şübhəli və müsbət reaksiyalı şagirdlərin Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri publik hüquqi şəxsində dərin ftiziatr müayinəsinə, lazım gələrsə, müalicəsinə və kimyəvi profilaktikaya cəlb olunmaları üçün zəruri tədbirlər həyata keçirilib.

I-VI sinif şagirdlərində kütləvi tuberkulin test sınaqları Şahbuz rayonunun Şahbuzkənd, Naxçıvan şəhərinin Tumbul, Culfa rayonunun Göydərə kəndlərində, Babək rayonunun Nehrəm və Cəhri qəsəbələrində və Şıxmahmud kəndində davam etdiriləcək və dekabrın 21-də başa çatacaq.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### Naxçıvan Muxtar Respublikası üzrə 7 dekabr 2020-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 1878 | 1420 | 458 |
| 2. | Babək rayonu | 8216 | 5226 | 2990 |
| 3. | Ordubad rayonu | 827 | 152 | 675 |
| 4. | Culfa rayonu | 4156 | 3420 | 736 |
| 5. | Kəngərli rayonu | 4804 | 2584 | 2220 |
| 6. | Şahbuz rayonu | 959 | 892 | 67 |
| 7. | Sədərək rayonu | 1532 | 552 | 980 |
| 8. | Naxçıvan şəhəri | 505 | 410 | 95 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **22877** | **14656** | **8221** |

### Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin noyabr ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | 198329 | 22556 | 22559 | 100,0 |
| 2. | Şərur rayonu | 1802465 | 202326 | 202346 | 100,0 |
| 3. | Naxçıvan şəhəri | 3659678 | 481340 | 481372 | 100,0 |
| 4. | Şahbuz rayonu | 515557 | 62779 | 62783 | 100,0 |
| 5. | Kəngərli rayonu | 674809 | 84470 | 84474 | 100,0 |
| 6. | Babək rayonu | 1618363 | 203133 | 203140 | 100,0 |
| 7. | Ordubad rayonu | 916930 | 110393 | 110394 | 100,0 |
| 8. | Culfa rayonu | 807182 | 99202 | 99202 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 13065297 | 1995447 | 1877712 | 94,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **23258610** | **3261646** | **3143982** | **96,4** |

***İtmişdir***

Şərur rayonunun Cəlilkəndində yaşayan Rəhimov Nihad Abbas oğlunun adına olan JN-102 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 912